**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ELMİN İNKİŞAFI FONDU**

---

Bakı şəhəri 28 dekabr 2018-ci il

# Elmin İnkişafı Fondunun 9-cu "Mobillik qrantı" məqsədli müsabiqəsinin keçirilməsi haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində elmi-tədqiqat işləri ilə məşğul olan alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirak, Azərbaycanda alınmış elmi nəticələrin tanıdılması, təcrübə mübadiləsi və yeni əlaqələrin qurulması imkanı yaratmaq məqsədilə 9-cu "Mobillik qrantı" müsabiqəsini (EİF-Mob-9-2018-4(34)) aşağıdakı şərtlər daxilində

ELAN EDİR:

**Layihələrin növləri və maliyyələşdirilmə həcmi:**

- **QMTK** - Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə qısamüddətli təcrübəkeçmə proqramlarında iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi;
  Bir qayda olaraq, Elmin İnkişafı Fondu 1 (bir) ayadək olan təcrübəkeçmə proqramlarını dəstəkləyir və təcrübəkeçmə ilə bağlı şərtlərdən asılı olaraq (təcrübəkeçmənin baş tutacağı təşkilatla bağlı xərclər Fond tərəfindən ödənilmir) qismən maliyyələşdirilmə də baş tuta bilər.

– **XETİ** - Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə keçirilən nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə şifahi elmi məruzələrlə iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi.

**Aşağıdakı Dövlət Proqramlarının icrası üzrə Tədbirlər Planlarını əhatə edən XETİ və QMTK layihələrinin dəstəklənməsi:**

– "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının "7.4.3. Əllə xalçatoxuma sənəti ilə bağlı innovativ və elmi araşdırmalara, nəşrlərə (kitablara, dərsliklərə, dövri nəşrlərə və s.) və tədris-hazırlıq kurslarının təşkilinə qrantların ayrılması" bəndinə müvafiq olaraq;
– "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının "5.10.1 Gənclərin intellektual inkişafa və elmi fəaliyyətə həvəsləndirilməsinə yönəlmiş layihələrin dəstəklənməsi"; "5.10.3. Gənc alimlərin təcrübə mübadiləsi üçün şəraitin yaradılması, yerli və beynəlxalq elmi-praktiki konfrans, forum, festival, seminar və digər tədbirlərin keçirilməsi"; "5.10.5. İstedadlı şagird və tələbələrin, gənc alimlərin ölkə üçün prioritet olan beynəlxalq olimpiada, konfrans, forum, simpozium, seminar və məşğələlərdə iştirakının dəstəklənməsi" bəndlərinə müvafiq olaraq;
– "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının "5.3.3. Xaricdə yüksək texnologiyalar sahəsində çalışan azərbaycanlı alim və mütəxəssislərlə əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqat və proqramların həyata keçirilməsi üçün tədbirlərin görülməsi" bəndinə müvafiq olaraq;

Həmçinin:

– "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı" üzrə kadr hazırlığı;
– "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı" üzrə kadr hazırlığı;
– "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı" üzrə kadr hazırlığı.

**Müsabiqənin keçirilmə müddəti:**

– Müsabiqədə iştirak etmək üçün layihələr **2019-cu il 07 yanvar** tarixindən başlayaraq qəbul olunur;
– Müsabiqədə iştirak etmək üçün layihələrin "on-line" olaraq qəbulunun son tarixi **2019-cu il 28 fevraldır**;
– Müsabiqəyə yalnız **2019-cu il 01 may - 15 iyun və 01 sentyabr – 30 noyabr** tarixləri arasında xaricdə keçiriləcək beynəlxalq elmi tədbirlərdə və qısamüddətli elmi təcrübəkeçmə proqramlarında iştirak etmək istəyən şəxslər sənədlərini təqdim edə bilərlər;
– Çap versiyasının (sənədlər daxil olmaqla) qəbulu üçün **son tarix 2019-cu il 1 mart saat 17.00-dır**;

– Müsabiqənin nəticələrinin ekspertizanın bitmə tarixindən və nəticələrin təsdiqindən asılı olaraq, 2019-cu ilin mart-aprel aylarında açıqlanması planlaşdırılır.

**DİQQƏT!**

**Elmin İnkişafı Fondunun əvvəlki "Mobillik qrantı" müsabiqələrinin qalibi olmuş, həmçinin Fondun hal-hazırda yerinə yetirilən digər layihələrində iştirak edən layihə rəhbərləri və icraçıları 9-cu "Mobillik qrantı" müsabiqəsində iştirak edə bilməzlər.**

**Cari müsabiqənin keçirilməsinin əsas prinsipləri:**

– Hər layihə üzrə **yalnız 1 nəfər** iddiaçı qismində iştirak edə bilər.
– Müsabiqədə iştirak üçün iddiaçının çalışdığı **yuxarı qurumun rəhbərinin yazılı razılığı** olmalıdır.
– XETİ üzrə layihə təqdim edilərkən ekspert tərəfindən qiymətləndirilə bilinməsi üçün, elmi tədbirdə nəzərdə tutulan çıxışın **tam** mətni əlavə olunmalıdır.
– QMTK üzrə layihə təqdim edilərkən ekspert tərəfindən qiymətləndirilə bilinməsi üçün, təcrübəkeçmə zamanı nəzərdə tutulan işlərin **ətraflı** planı əlavə olunmalı və bu plan təcrübəkeçmənin rəhbəri tərəfindən təsdiq olunmalıdır.
– XETİ və QMTK üzrə dəvətlər birbaşa olaraq **Elmin İnkişafı Fondunun adına göndərilməlidir (poçt, e-mail, faks ilə).**
– Türkdilli və rusdilli ölkələr istisna edilməklə digər ölkələrdə baş tutacaq XETİ və QMTK üzrə ingilis (fransız və ya alman) dilini bilmə səviyyəsini təsdiq edən sənəd təqdim olunduqda, layihəyə üstünlük veriləcəkdir. Sənəd təqdim olunmadıqda isə, Fond şifahi müsahibə keçirə bilər.
– Dünyada tanınmış və yuxarı reytinqə malik qurumlarda baş tutacaq təcrübəkeçmələrə və nüfuzlu elmi tədbirlərdə iştirakla bağlı layihələrə üstünlük veriləcəkdir.
– Xüsusi qısamüddətli kurslar istisna olmaqla, QMTK üzrə minimum müddət 21 gün, maksimum müddət isə 30 gün (yol müddəti daxildir) olmalıdır.
– Qalib QMTK layihələr üzrə ilkin ödəniş 50%-dək həcmdə həyata keçiriləcək, yerdə qalan vəsait isə hesabatlar verildikdən sonra hesaba köçürüləcəkdir.

**Digər şərtlər:**

Azərbaycandan olan alim və mütəxəssislərin xaricdə keçirilən nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə elmi məruzələrlə iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi üzrə qrant iddiaçılarının adıçəkilən tədbirlərdə **plenar, dəvətli və ya şifahi məruzələri (çıxışların mətnləri sənədlərə əlavə olunmalıdır)** nəzərdə tutulmalıdır. Bu haqda təsdiqedici sənəd və ya dəvətnamə olmalı (əsli, yuxarıda qeyd olunduğu kimi Elmin İnkişafı Fondunun ünvanına göndərilməlidir) və müsabiqəyə təqdim olunan sənədlərə əlavə edilməlidir. "Divar" tipli məruzələr ("poster") və ya məruzəsiz iştiraklar üzrə təqdim edilmiş layihələr texniki ekspertiza mərhələsindən keçməyəcəkdir.

**Layihələrin tərtibatı və təqdim olunması:**

Bu müsabiqəyə layihələr yalnız Elmin İnkişafı Fondunun yaratdığı innovativ texnologiya olan **"e-QRANT"="Qrant layihələrinin Elektron İdarəolunması Sistemi"**

(http://e-grant.sdf.gov.az/) vasitəsilə təqdim edilə bilər. Bu sistem elektron-hökumət prinsipləri əsasında qurulmuşdur və "ASAN-İmza"dan istifadəni nəzərdə tutur. Nəzərə almaq lazımdır ki, "e-QRANT" sistemindən istifadə cari və sonrakı müsabiqələrdə iştirakı xeyli sadələşdirir və sənədləşmə işinin həcmini azaldır.

"e-QRANT" sistemi vasitəsilə təqdim və təsdiq olunmuş layihənin son PDF versiyası (1 nüsxə Azərbaycan dilində) **çap olunmaqla və imzalanmaqla** 2019-cu il 1 mart tarixi saat 17.00-dək Elmin İnkişafı Fondunun icraçı direksiyasına (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) **həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək** birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə təhvil verilməlidir.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydaları"nda (http://sdf.gov.az) tanış olmaq olar.

**Ümumi şərtlər:**

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələsində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin elmi ekspertizası işini və qalib layihələrin vaxtaşırı monitorinqini təşkil edəcəkdir.

Müsabiqədə iştirakla bağlı ciddi problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (AZ-1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur.

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində e-QRANT sisteminə qoşulma və ondan istifadə üzrə, həmçinin qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə məsləhət seminarlarının (lazım gəldikdə, səyyar seminarlar olmaqla) keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır. Seminarlarda iştirak təqdir olunur.

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı: *info@elmfondu.az*
**Elmin İnkişafı Fondunun icraçı direksiyası**